*Səlimova Nəzakət Bahadur qızı,*
*psixologiya üzrə fəlsəfə doktoru,*
*Bakı Biznes Universiteti,*
*Email: nezaketsalimova1@gmail.com*

# POST-MÜHARİBƏ DÖVRÜNDƏ QARABAĞDA SOSİAL-İQTİSADİ PROBLEMLƏRİN HƏLLİ İSTİQAMƏTLƏRİ

Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyevin rəhbərliyi, rəşadətli ordumuzun gücü ilə 44 günlük müharibədə Azərbaycan öz beynəlxalq səviyyədə tanınmış dövlət sərhədlərini bərpa etdi. Vətən müharibəsində qazanılan qələbədən sonra dövlətimiz və onun Prezidenti cənab İlham Əliyev regionda əbədi sülhə nail olmaq üçün müxtəlif səviyyəli  beynəlxalq görüşlərdə diplomatik səylərini uğurla davam etdirir. Azərbaycan Respublikasının Prezidenti, eyni zamanda, informasiya və diplomatiya sahəsində də çox uğurlu siyasi gedişlər edərək Azərbaycanın haqq səsini bütün dün-yaya çatdırmaqla dövlətimizin ədalətli mövqeyini tutarlı və təkzibedilməz sübutlarla beynəlxalq ictimaiyyətə qəbul etdirdi. Elə 6 aprel 2022-ci  ildə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə keçirilən üçtərəfli görüşdə də Prezidentimizin siyasi uzaqgörənliyi, diplomatik bacarığı və liderlik keyfiyyətləri bir daha özünü büruzə verdi. Cənab Prezident bu hərbi, siyası və diplomatik qələbələrə Azərbaycan xalqının vahid yumruq kimi birləşməsi yolu ilə nail oldu. O, məhz xalqımızın birliyinə və bu birlikdən yaranan gücünə arxalanaraq beynəlxalq birlik qarşısında cəsarətlə dayanaraq, Azərbaycanın ərazi bütövlüyü, dövlət suverenliyi və müdafiə qabiliyyətinin, habelə dövlət təhlükəsizliyinin  möhkəmləndirilməsində uğurlu nəticələrə nail oldu.

Ermənilər uzun müddət işğal altında saxladığı ərazilərdə xalqımıza və dövlətçiliyimizə qarşı ağır cinayətlər törətmiş, Azərbaycan Respublikasının Qarabağ və ətraf yeddi rayonunda  bütün infrastrukturu məhv etmişdilər.

Qarabağda Azərbaycanın şanlı qələbəsindən sonra işğaldan azad olunmuş ərazilərin bərpası, sürətli quruculuq işlərinin aparılması, sosial-məişət şəraitinin yaradılması, məcburi köçkünlərin öz doğma yerlərində məskunlaşdırılması və bölgənin iqtisadi fəallığının artırılması dövlətin əsas vəzifələrindən  birinə çevrilmişdir.

Elə bu məqsədlə ötən ilin yekunlarına dair müşavirədə cənab İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə sürətli quruculuq işlərinin aparılmasını hökumətin qarşısında mühüm vəzifə kimi qoymuşdur. İşğaldan azad olunmuş ərazilərimizdə bərpa və yenidənqurma işlərinin göstərilən istiqamətlər üzrə həyata keçirilməsi nəzərdə tutulmuşdur: ilk növbədə nəqliyyat-loqistika xidmətlərinin həyata keçirilməsi məqsədi ilə nəqliyyat dəhlizlərinin yaradılması, xüsusilə Azərbaycanın tərkib hissəsi olan Naxçıvanla birbaşa əlaqələrin həyata keçirilməsi üçün Zəngəzur dəhlizinin, onunla paralel olaraq həmin dəhliz boyu avtomobil yolu, dəmiryolu, elektrik - qaz xətlərinin çəkilməsi, çoxsaylı infrastruktur obyektlərinin yaradılması, onların bazasında qədim ipək yolunun bərpası prioritet vəzifə kimi dövlətin daim diqqət mərkəzindədir. Ona görə də bütün siyasi, iqtisadi və diplomatik vasitələrdən istifadə olunmaqla bu strateji layi-

həyə xüsusi diqqət yetirilir.

Qeyd olunan layihənin uğurla reallaşması Azərbaycanın Cənub və Şərq-Qərb dəhlizlərinin qovşağına çıxmaqla, Xəzər-Qara dəniz hövzəsində və Cənubi Qafqaz -da strateji mövqe əldə etməsinə gətirib çıxaracaqdır. Bu yolun Qarabağın və bütövlükdə Azərbaycanın iqtisadi inkişafında əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycana daxil olan yüklər Bakı-Tbilisi-Qars dəmiryolu xətti ilə Qarabağdan keçməklə Mehri dəhlizi vasitəsi ilə Naxçıvana və Türkiyəyə, oradan da Avropaya çatdırılacaqdır.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 4 yanvar 2021-ci il tarixli fərmanı ilə azad olunmuş ərazilərimizin bərpası, həmin ərazilərdə müxtəlif sosial-iqtisadi, aqrar, loqistiq, enerji, turizm və s. layihələrin icrasını təmin etmək məqsədi ilə "Qarabağ Dirçəliş Fondu" yaradılmışdır. İşğaldan azad edilmiş ərazilərimizdə mədən sənayesinin, mineral suların, baramaçılığın, şərabçılığın, xalçaçılığın inkişaf etdirilməsi də həmin Fondun vəsaiti hesabına təmin ediləcəkdir.

Onu da nəzərə almaq lazımdır ki, qeyd olunan sahələrdə görülməli olan mühüm işlər hələ 2004-cü ildə qəbul olunmuş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2004–2008-ci illər) kimi mühüm strateji sənəddə öz əksini tapmış, həmin sənəddə Yuxarı Qarabağ iqtisadi rayonunun gələcək inkişaf perspektivləri göstərilmişdir.

Bütün inkişaf proqram və layihələrinin həyata keçirilməsinin başlıca məqsədi əhalinin sosial rifahının yaxşılaşdırılması, vətəndaşlarımızın xüsusi həssas təbəqələrinin - əlillərin, şəhid ailələrinin, vətən müharibəsi iştirakçılarının və onların ailə üzvlərinin, təqaüdçülərin, aztəminatlı ailələrə verilən vəsaitlərin artırılmasını təmin etməkdir.

Dünya təcrübəsində misli görünməmiş bir layihənin Füzuli Hava limanının çox qısa müddət ərzində beynəlxalq standartlara uyğun şəkildə tikilib istifadəyə verilməsi, Zəngilan və Kəlbəcər rayonlarının ərazilərində də belə hava limanlarının tikilməsinin planlaşdırılması, işğaldan azad edilmiş digər ərazilərdə avtomobil və dəmiryol layihələrinin reallaşdırılması bütövlükdə həmin ərazilərə köçürüləcək əhalinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına əlverişli şərait yaradacaqdır.

İşğaldan azad edilmiş ərazilərimizdə sosial obyektlərin tikintisinin planlaşdırılması və icrası, "ağıllı şəhər", "ağıllı kənd " layihələrinin uğurla həyata keçirilməsi ilə paralel şəkildə həmin ərazilərdə digər infrastruktur layihələrinin gerçəkləşdirilməsi sahəsində də mühüm işlər görülür ki, bunlar da öz doğma torpaqlarına qayıdacaq vətəndaşlarımızın sosial rifah halının yaxşılaşdırılmasına yönəldilmiş mühüm tədbirlər kimi qiymətləndirilməlidir.

Qeyd olunan ərazilərdə infrastruktur potensialının əsas elementləri olan nəqliyyat, su təchizatı və kanalizasiya, telekommunukasiya və enerji kimi infrastruktur sahələri ilə yanaşı kommersiya infrastrukturunun formalaşdırılması da əhalinin məşğulluğunun təmin edilməsi və beləliklə də onların sosial rifahının yüksəldilməsinə xidmət etməklə Qarabağ üzrə regional inkişaf strategiyasının mühüm şərti hesab oluna bilər.

Qarabağ regionun sosial-iqtisadi inkişafı qeyd olunanlarla məhdudlaşmır. Azad olunmuş rayonların və ərazilərin yüksək aqro-sənaye yönümlü inkişaf potensialını

nəzərə alaraq məşğulluq səviyyəsinin yüksəldilməsi və əhalinin güzəranının daha da yaxşılaşdırılması məqsədi ilə həmin regionlarda vacib sosial struktur rolunu oynayan istehlak kooperasiyası sisteminin dirçəldilməsi istiqamətində mühüm işlər görülür.

İstehlak korporasiyasının yaradılmasının başlıca məqsədi azad olunmuş rayonlarda və ilk növbədə, kənd yerlərində sosial infrastrukturun genişləndirilməsi və inkişaf etdirilməsindən, istehlak malları bazarının sabit inkişafını təmin etməkdən ibarətdir ki, bu da əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına xidmət edəcəkdir.

Qeyd olunan məqsədlərə daha tez nail olunması üçün yeni informasiya texnologiyalarının tətbiqi yolu ilə elektron kommersiyanın inkişafını əsaslandıran infrastruktur elementlərinin, həmçinin elektron ödəniş sistemlərinin tətbiqi mexanizmlərinin formalaşdırılması kimi perspektiv strategiyaların qəbuluna xüsusi önəm verilir.

Belə hala xüsusi diqqət yetirilməlidir ki, Azərbaycanın azad edilən Qarabağ regionunun coğrafi mövqeyi, həmin ərazidən Avropaya və Asiyaya çıxışın real imkanlarının daha çox artması Azərbaycanın beynəlxalq nəqliyyat-kommunikasiya və dəhliz layihələrində daha fəal iştirakını gücləndirir. Məhz bu amili nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bütün ikitərəfli və çoxtərəfli danışıqlarda və diplomatik təmaslarda, habelə geniş auditoriyaya ünvanlanmış müsahibələrində bu məsələləri xüsusi olaraq dünya ictimaiyyətinin və dövlət rəhbərlərinin diqqətinə çatdırır.

Hətta bir sıra qərb siyasətçiləri də etiraf edirlər ki, Azərbaycan ikinci Qarabağ müharibəsindəki danılmaz və möhtəşəm qələbəsi ilə qərbə və şərqə çıxışın qovşağında yerləşən və öz əzəli ərazisi olan Qarabağı erməni işğalçılarından azad etməklə özünün geosiyasi və geostrateji kursunu daha çox dəqiqləşdirmək imkanına malik oldu. Bütün bunlar Azərbaycana regional və beynəlxalq səviyyədə kifayət qədər iqtisadi, siyasi və hətta sosial-mədəni üstünlüklər verdi və onu bölgədə çox güclü bir regional, bəzi məqamlarda isə beynəlxalq oyunçuya çevrildı.

Artıq Qarabağda bərpa olunan enerji mənbələrinin istifadəsini, enerji səmərəliliyini, ekoloji cəhətdən təmiz texnologiyaları, o cümlədən nəqliyyat vasitələrinin istifadəsini və digər sahələri əhatə edəcək yaşıl zona konsepsiyasının inkişaf etdirilməsinə başlanılmışdır. Bu məsələ ilə əlaqədar ölkənin daxili potensialının səfərbər edilməsi ilə yanaşı Beynəlxalq Bərpa olunan Enerji Agentliyi ilə çox səmərəli müzakirələr aparılmaqdadır.

Qeyd olunanlar Qarabağ bölgəsinin çox geniş turizm potensialının reallaşdırılmasına əlverişli şərait yaradır. Həmçinin bu bölgənin olduqca zəngin, misilsiz təbiətə və tarixi abidələrə malik olması bu imkanları daha da genişləndirməklə Azərbaycanın əsas turizm zonalarından birinə çevrilməsi prosesini daha da sürətləndirilməsini təmin edir.

Bölgədə yol sektorunun inkişafı da turizm potensialını genişləndirməyə və beləliklə əhalinin sosial rifahının yüksəldilməsinə öz töhfəsini verəcəkdir.

Qarabağ regionunun bərpası zamanı digər sahələrin də inkişafına, xüsusilə mədən sənayesinin, enerji istehsalının, mineral suların istehsalı və dünya bazarına çıxarılması, şərabçılıq, xalçaçılıq və digər sahələrin bərpası və inkişaf etdirilməsi respublikamızın iqtisadi qüdrətinin artmasında əhəmiyyətli rola malik olacaqdır.